# Şimali Makedoniya

*Avropanın cənub-şərqində, Balkan yarımadasının mərkəzində yerləşən kiçik, amma inanılmaz dərəcədə zəngin mədəniyyəti və təbiəti ilə diqqət çəkən Şimali Makedoniya keçmişin izlərini bu günə daşıyan, tarixin dərinliklərindən süzülüb gələn mədəniyyət və ənənələrlə dolu diyardır. Təbiətin səssiz möcüzəsi adlandırılan ölkənin dənizə çıxışı yoxdur. Şimalda Serbiya, qərbdə Albaniya, cənubda Yunanıstan, şərqdə isə Bolqarıstanla həmsərhəddir. Ərazisi dağlıqdır, sanki təbiət burada insanlara nəhəng qalalar bəxş edib, dağlıq əraziləri, geniş düzənlikləri və təbii zənginlikləri ilə Avropanın ən maraqlı guşələrindən biridir. Ölkənin şah damarı olan Vardar çayı onu cənuba doğru bölərək Egey dənizinə aparır.*

*Balkanların bu sakit guşəsində Ohrid gölü xüsusi yer tutur. UNESCO-nun Dünya İrs Siyahısına düşən bu gözəllik sanki qədim dövrlərin bir xatirəsi kimi insanların qarşısına çıxır. Şəhər Balkanların tarixi mərkəzlərindən biri hesab edilir.*











Qədim sivilizasiyaların beşiyi olan Şimali Makedoniyada hələ də İsgəndər Makedoniyalının izi hiss edilir. Qədim Paeoniya və Makedoniya krallıqlarının bir hissəsi olan bu torpaqlar sonralar Roma, Bizans, Osmanlı imperiyalarının hakimiyyəti altında olub. Osmanlı dövrü ölkənin tarixində mühüm izlər qoyub. Dörd əsrdən çox Osmanlı hakimiyyətində qalan Şimali Makedoniya o dövrdə mədəniyyətlərarası əlaqələrin inkişaf etdiyi bir bölgə olub. Bu gün Skopyedəki Daş körpü, Mustafa Paşa məscidi və karvansaralar tarixi miras kimi qorunub saxlanılır.

Bəzən əsrlərlə davam edən hadisələr bir anın içində dəyişir. 1991-ci il sentyabrın 8-də Şimali Makedoniya tarixində mühüm hadisə baş verdi. Ölkə Yuqoslaviya adlı böyük bir imperiyanın kölgəsindən çıxaraq öz yolunu seçdi. Bu ayrılıq nə müharibə, nə qan, nə də dağıntılar gətirdi - sadəcə bir millətin sakit, amma qətiyyətli qərarı idi. Makedoniya azad və gələcəyinə sahib bir ölkə kimi adını tarixə həkk etdi.

Şimali Makedoniya çoxetnikli bir ölkədir və burada bir çox dilin istifadə olunduğunu görmək mümkündür. Rəsmi dil olan makedon dili slavyan dilləri ailəsinə aiddir və serb, bolqar, xorvat dillərinə yaxın qohumluq əlaqəsinə malikdir. Lakin burada çoxsaylı etnik qruplar yaşadığı üçün alban, türk və digər dillər də yayılmışdır. Türk dili Osmanlı dövründən qalan miras olaraq müxtəlif bölgələrdə hələ də geniş şəkildə istifadə olunur. Şimali Makedoniyanın mədəniyyəti bir çox fərqli etnik və dini təbəqələrin təsiri altında formalaşdığı üçün burada slavyan, türk, yunan və digər mədəniyyətlərin təsiri aydın şəkildə özünü göstərir. Xalq rəqsləri, musiqi və adət-ənənələr bu müxtəlif mədəniyyətlərin birləşməsi nəticəsində zənginləşmişdir. "Oro" xalq rəqsi bu ənənələrin ən mühüm hissələrindən biridir. İnsanlar dairəvi şəkildə birləşərək ahəngdar və ritmik hərəkət edirlər - bu rəqs birləşmənin, dostluğun və həmrəyliyin simvoludur.

Ölkə sanki tarixlə bu günün arasında incə körpüdür. Burada qədim məbədlər, Osmanlı bazarları, ortodoks kilsələri, müasir şəhər mənzərələri və əsrarəngiz təbiət bir araya gəlir. İnsanlar mehriban və qonaqpərvərdir. Balkan mədəniyyətinə xas olan isti münasibət burada da hiss olunur. Məsələn, Skopyedəki Köhnə Bazar Osmanlı dövründən qalma ən böyük bazarlardan biridir. Burada yerli ustaların əl işləri, qədim zinət əşyaları və suvenirlər satılır.

Şimali Makedoniyanın mətbəxi Balkanların zəngin ənənələrini yaşadır. Türk, yunan və slavyan mətbəxinin qarışığı olan yeməklər dadlı və doyumludur. Tavçe Gravçe - Şimali Makedoniyanın milli yeməyi lobyadan hazırlanır, ən özəl xüsusiyyəti isə onun gil qabda bişirilməsidir. Ajvar - bibər, burek kebapi ölkənin ən məşhur yeməklərindəndir. Makedoniya şərabları, xüsusilə Tikveş bölgəsindən gələn şərablar Avropada yüksək qiymətləndirilir.

Rəngarəng naxışlarla bəzədilmiş qadın geyimləri və kişilərin geniş kəmərləri ölkənin milli ənənələrini nümayiş etdirir. Qadınlar üçün uzun, ətəkli donlar, naxışlı köynəklər və baş örtükləri ənənəvi üslubun bir hissəsidir. Kişilər isə şalvar, qolsuz jilet və geniş kəmərlər taxırlar. Bu geyimlər əsasən toy, bayram və milli tədbirlərdə geyinilir.

Dünyada bəzi ölkələr var ki, onlar coğrafi olaraq bir-birindən uzaqda yerləşsələr də, tarixi, mədəni və iqtisadi əlaqələr sayəsində bir-birinə yaxınlaşırlar. Azərbaycan və Şimali Makedoniya da məhz belə ölkələrdəndir. Azərbaycanla Şimali Makedoniya arasında dostluq əlaqələri uzun illərdən bəri mövcuddur. 28 iyun 1995-ci ildə diplomatik münasibətlərin qurulmasından sonra iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələr inkişaf edib. Şimali Makedoniya rəhbərlərinin vaxtaşırı Azərbaycana səfərləri zamanı tərəflər müxtəlif sahələrdə əlaqələrin dərinləşdirilməsini müzakirə ediblər. Şimali Makedoniya Respublikasının sabiq Prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə Azərbaycana işgüzar səfərlər edib.

Son illərdə iki ölkə arasında ticarət dövriyyəsi artıb, birgə iqtisadi layihələrə imza atılıb və investisiyaların təşviqi ilə bağlı razılaşmalar əldə edilib. Hazırda Azərbaycanda Şimali Makedoniya sərmayələri ilə fəaliyyət göstərən kommersiya qurumları mövcuddur. Bu, iqtisadi əməkdaşlığın təkcə kağız üzərində deyil, real biznes əlaqələri səviyyəsində də inkişaf etdiyini göstərir. İki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş 2013-cü ildə imzalanıb. Bu gün isə yeni layihələrin həyata keçirilməsi gündəmdədir. Ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı razılaşma da iqtisadi münasibətlərin möhkəmlənməsinə xidmət edir. 2021-ci ildən bəri iki ölkə arasında ticarət həcmi əhəmiyyətli dərəcədə yüksəlib və bu, qarşılıqlı marağın göstəricisidir.

Azərbaycan və Şimali Makedoniya arasında yalnız iqtisadi deyil, həm də mədəni və humanitar əlaqələr inkişaf edir. Tarixə nəzər saldıqda görürük ki, Osmanlı imperiyasının tərkibində olmuş bu iki ölkənin mədəniyyətində oxşarlıqlar mövcuddur.

İki ölkə arasındakı əlaqələrin yeni mərhələyə qədəm qoyduğunun bariz nümunəsi isə Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkovanın COP29 tədbiri çərçivəsində Bakıya rəsmi səfəri olmuşdur. Ötən ilin 14 noyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşən xanım Qordana Silyanovska-Davkova COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulamışdır. Ali qonaq Azərbaycan mədəniyyəti ilə tanışlıqdan məmnunluğunu bildirmiş və ölkəmizlə əməkdaşlıq üçün geniş imkanların olduğunu demişdir. Ölkə başçımız da öz növbəsində Qordana Silyanovska-Davkovanın ölkəmizə səfərinin münasibətlərin genişləndirilməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir. Bu kontekstdə Balkan ölkələri ilə əlaqələrinin inkişafına önəm verdiyini qeyd etmişdir.

Bu görüşlər bir daha sübut edir ki, ölkələr arasındakı coğrafi məsafə diplomatik və dostluq münasibətlərinə mane olmur. Balkanlardan Xəzərə uzanan bu dostluq körpüsü gələcək illərdə möhkəmlənəcək və iki ölkə arasında əlaqələri daha da gücləndirəcək.

**Arzu ASİFQIZI,**
**"Respublika".**












Respublika .- 2025.- 12 mart (№ 54).- S.4.